"Xalq Sığorta" Açıq Səhmdar Cəmiyyəti
**MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR HESABAT**
**31 dekabr 2022-ci il tarixdə başa çatmış il üzrə**

*Azərbaycan Manatı ilə*

| | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Torpaq, tikili və avadanlıqlar | 6 | 10 282 459 | 8 716 239 |
| Qeyri-maddi aktivlər | 7 | 765 410 | 916 951 |
| Uzunmüddətli maliyyə aktivləri | 8 | 17 741 048 | 17 939 447 |
| İştirak payı metodu ilə investisiyalar | 9 | 15 312 500 | 15 312 500 |
| | | ***44 101 417*** | ***42 885 137*** |
| *Qısamüddətli aktivlər* | | | |
| Birbaşa sığorta üzrə qısamüddətli debitor borcları | | 2 360 812 | 8 509 537 |
| Vergi və sair məcburi ödənişlər üzrə q/m debitor borcları | 16 | 379 475 | 555 378 |
| Sair qısamüddətli debitor borcları | 10 | 3 315 182 | 380 893 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 30 374 893 | 26 797 277 |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 14 | 1 090 819 | 1 005 323 |
| Sair qısamüddətli aktivlər | 11 | 37 899 | 43 061 |
| | | ***37 559 080*** | ***37 291 469*** |
| ***CƏMİ AKTİVLƏR*** | | **81 660 497** | **80 176 606** |
| **KAPİTAL** | | | |
| Nizamnamə (Səhmdar) kapitalı | 19 | 58 750 500 | 58 750 500 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | (16 758 060) | (4 532 122) |
| **CƏMİ KAPİTAL** | | **41 992 440** | **54 218 378** |
| **ÖHDƏLİKLƏR** | | | |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər | 13 | 703 373 | 553 332 |
| Sığorta ehtiyatları | 14 | 37 867 455 | 24 562 419 |
| Qarşısıalınma tədbirləri fondu | 15 | 842 330 | 647 113 |
| | | ***39 413 158*** | ***25 762 864*** |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 16 | 77 922 | 64 392 |
| Qısamüddətli kreditor borcları | 17 | 138 011 | 92 006 |
| Sair qısamüddətli öhdəliklər | 18 | 38 966 | 38 966 |
| | | ***254 899*** | ***195 364*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **39 668 057** | **25 958 228** |
| ***CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR*** | | **81 660 497** | **80 176 606** |

Raman Kurbanov
*İdarə heyətinin sədri*
*30 mart 2023-cü il*

Dəyanət Yaqubov
*Baş mühasib*
*30 mart 2023-cü il*

**Maliyyə hesabatlarına şərhlər və qeydlər**

## 1. Giriş

Hazırkı maliyyə hesabatları 31 dekabr 2022-ci tarixdə başa çatmış il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq "Xalq Sığorta" ASC üçün tərtib edilmişdir. Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmişdir və bu ölkədə fəaliyyət göstərir. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış səhmdar cəmiyyətdir.

### 1.1.Cəmiyyət haqqında ümumi məlumat

Cəmiyyət 26 yanvar 2005-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 1105-A1-415 saylı şəhadətnamə ilə "Xalq Sığorta" Məhdud Məsuliyyətli Cəmiyyət kimi dövlət qeydiyyatına götürülmüşdür. 22 dekabr 2008-ci il tarixdən cəmiyyət yenidən təşkil edilərək "Xalq Sığorta" Açıq Səhmdar Cəmiyyətinə çevrilmişdir. Qeydiyyat N-si (VÖEN): 2000358551.

Cəmiyyət sığorta fəaliyyəti üçün Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən verilmiş 29 aprel 2010-cu il tarixli 000333 nömrəli müddətsiz sığorta lisenziyasına əsasən fəaliyyət göstərir. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə və Nizamnaməsinə əsasən qeyri-həyat sığorta fəaliyyətinin bütün növlərini və sığorta təşkilatları üçün qadağan edilməmiş digər fəaliyyət növlərini həyata keçirmək hüququna malikdir.
31 dekabr 2022-ci il tarixə cəmiyyətin strukturuna daxil olan 1 filialı və 28 Nümayəndəliyi (31 dekabr 2021-ci il tarixə 1 filial və 30 Nümayəndəlik) olmuşdur. 31 dekabr 2022-ci il tarixə cəmiyyətin 278 nəfər (31 dekabr 2021-ci il tarixə 278 nəfər) işçisi olmuşdur.

2011-ci ildən cəmiyyət İcbari Sığorta Bürosunun üzvüdür. Büroda iştirak haqqı olaraq ödənilmiş məbləğ 31 dekabr 2022-ci il tarixə (300 000 manat) və 31 dekabr 2021-ci il tarixə (300 000 manat) maliyyə hesabatlarında uzunmüddətli maliyyə aktivi olaraq əks etdirilmişdir.

31 dekabr 2022-ci il tarixə Cəmiyyətin Nizamnamə kapitalı hər birinin nominal dəyəri 7,95 manat olan 7390000 ədəd adi adlı sənədsiz səhmdən ibarət olmaqla 58750500 manat (31 dekabr 2021-ci il tarixə hər birinin nominal dəyəri 7,95 manat olan 7390000 ədəd adi adlı sənədsiz səhmdən ibarət olamaqla 58750500 manat) olmuşdur.

Cəmiyyətin səhmdarları və onların Nizamnamə kapitalında payı aşağıda göstərilmişdir:

| | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|
| 1. «İdeal Biznes Ko.» MMC | 50% | 50% |
| 2. «Yevro Standart» MMC | 50% | 50% |
| | 100% | 100% |

### 1.2.Cəmiyyətin hüquqi ünvanı

"Xalq Sığorta" ASC-nin ünvanı aşağıdakı kimidir:
Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 22L .

**1.3.Əməliyyat valyutası**

Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Manatı (AZN) ilə ifadə olunmuşdur.

**2. Cəmiyyətin əməliyyat mühiti**

Azərbaycan Respublikası inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas olan xüsusiyyətlərə malikdir. Son illər ölkədə güclü iqtisadi artım müşahidə olunmuşdur. Lakin hal-hazırda dünya iqtisadiyyatında mövcud olan qlobal maliyyə böhranı Azərbaycana da öz təsirini göstərməkdədir. Kommersiya sektoruna təsir göstərə biləcək bütün tendensiyaları, eləcə də onların Cəmiyyətin maliyyə vəziyyətinə təsirini (əgər varsa) qabaqcadan proqnozlaşdırmaq mümkün deyil.

**3. Uçot siyasətinin təqdimatı**

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

**3.1.Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları**

"Xalq Sığorta" ASC-nin maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun tərtib edilmişdir. Bu maliyyə hesabatlarında, aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir. Gəlirlər və xərclər hesablama metodu ilə göstərilmişdir.

Maliyyə hesabatlarının MHBS-na uyğun tərtib edilməsi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir. Rəhbərlikdən həmçinin tələb edilir ki, Cəmiyyətin uçot siyasətinin həyata keçirilməsi sahəsində peşəkar mülahizələr açıqlansın.

**3.2.Valyutaların yenidən hesablanması**

*(a) Funksional valyuta və hesabat valyutası*
Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Bu müəssisənin yerli valyutası olan Azərbaycan Respublikası manatıdır (AZN).

*(b) Əməliyyatlar və qalıqlar*
Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fəqqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır (və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir. Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir. Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hedcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir.

Monetar maddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüququdur. Monetar maddələr nəğd, əldə edilən vəsaitləri, sudaları, ödənilməli olan məbləğləri, uzunmüddətli borcları, təminatları, işçi müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir.

Qeyri-monetar maddələrə səhmlər, ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərcləri, əmlak, torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər daxil edilir.

*Xarici valyuta məzənnələri*
Cəmiyyət maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı valyuta məzənnələrindən istifadə etmişdir:

| | *31 dekabr 2022-ci il* | *31 dekabr 2021-ci il* |
|---|---|---|
| 1 ABŞ dolları | 1.7000 AZN | 1.7000 AZN |
| 1 Avro | 1.8114 AZN | 1.9265 AZN |

**3.3.Binalar və avadanlıqlar (Əsas vəsaitlər)**

Əsas vəsaitlər elə maddi aktivlərdir ki:
(a) Mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir;
(b) Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.

Torpaq və binalara əsasən istehsal sahələri və binaları, ticarət sahələri və binaları, ofis sahələri və binaları daxildir. Torpaq və binalar ədalətli dəyər üzrə əks etdirilir. Cəmiyyətin balansında torpaq və binalar yoxdur.

Ədalətli dəyər – yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticari sövdələşmələrdə aktivin mübadilə edildiyi dəyərdir. Binalar üzrə ədalətli dəyər müstəqil kənar qiymətləndirici tərəfindən vaxtaşırı keçirilən (adətən üç ildən bir dəfədən az olmayaraq) qiymətləndirmə ilə müəyyənləşdirilir (amortizasiya ayırmaları çıxılmaqla). Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizsiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir.

İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. İlkin dəyərə həmçinin valyuta ilə alınmış əsas vəsaitlərin hedcinqi üzrə kapitala keçirilən pul vəsaitlərinin axını üzrə mənfəət və zərərlər də daxil edilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Cəmiyyətə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan dütün cari təmir və istismar xəcləri o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmişdir.

Hər il aktivin yenidənqiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya

ayırmaları (amortizasiya ayırmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir) və aktivin ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyat (rezerv) hesabından "Bölüşdürülməmiş mənfəət" hesabına keçirilir.

**3.4.Amortizasiya**

Əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə, aktivlərin qalıq dəyərinə və ya yenidənqiymətləndirilmiş dəyərinə vurmaqla həyata keçirilir. Faydalı istismar müddəti və ya illik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir:

- Bina və tikililər - illik 1%
- Maşın avadanlıq – illik 10%
- İT avadanlıqları – illik 12,5%
- Nəqliyyat vasitələri – illik 12,5%
- Mebel və təsərrüfat inventarları – illik 10%
- Sair əsas vəsaitlər – illik 10%

Aktivlərin ləğv edilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.

Əsas vəsaitlərin xaricolmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**3.5. Qeyri-maddi aktivlər**

Cəmiyyətin bütün qeyri-maddi aktivləri müəyyən faydalı xidmət müddətinə malik olmaqla əsasən audiovizual əsərə hüquqlar, proqram məhsulları və lisenziyadan ibarətdir.

Əldə edilmiş hüquqlar və proqram məhsulları onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılmışdır. Cəmiyyət tərəfindən nəzarət olunan identifikasiya oluna bilən unikal proqram təminatı ilə birbaşa əlaqəli olan tərtibat xərcləri, çəkilmiş xərclərdən artıq olan iqtisadi səmərə gətirəcəyi halda qeyri-maddi aktivlər kimi tanınır. Kapitallaşdırılmış xərclərə proqram təminatını tərtib edən şirkətlərə sərf edilən xərclər daxildir. Proqram təminatı ilə əlaqədar olan bütün digər xərclər (məsələn, texniki dəstək xərcləri) çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış proqram təminatı onun 10 illik faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

Lisenziyanı - sığorta fəaliyyət növünə müvafiq dövlət orqanı tərəfindən müddətsiz verilmiş xüsusi icazə təşkil edir və şərti olaraq 10 il faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur. İcbari Sığorta Bürosuna ödənilmiş birdəfəlik haqq (200,000 manat məbləğində) şərti olaraq 10 il faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

**3.6.Aktivlərin qiymətdən düşməsi**

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyəri olmamasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən

düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğində tanınır. Əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyarlardan daha böyük olan məbləğlərdən biridir:

(a) Aktivin satışı üzrə xərclər çıxılmaqla ədalətli dəyəri;

(b) İstifadə edilmə dəyəri.

Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eyniləşdirən qruplaşdırma qaydasında ən kiçik qruplara bölünürlər.

**3.7.İnvestisiyalar**

Cəmiyyət özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

- Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri;
- Borc vəsaitləri və debitor borcları,
- İnvestisiyalar;
- Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri.

Təsnifləşdirmə investisiyaların hansı məqsədlə alınmasından asılıdır. Rəhbərlik investisiyaların təsnifləşdirilməsini onların ilkin tanınması zamanı müəyyən edir və hər bir hesabat tarixinə onları yenidən nəzərdən keçirir.

*(a) Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri*

Bu kateqoriya iki alt kateqoriyaya bölünür: ticarət üçün nəzərdə tutulmuş maliyyə aktivləri və ilkin tanınmış ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri. Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid edilir ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur və onlar rəhbərlik tərəfindən belə ifadə edilmişdir. Törəmə maliyyə alətləri də həmçinin satış üçün nəzərdə tutulmuş hesab edilirlər ki, onlar hedcinqləşdirmə alətləri deyildirlər. Əgər bu aktivlər satış üçün nəzərdə tutulmuşlarsa, və ya onların satılması balans hesabatı tarixindən bir ildən artıq olmayan müddətdə nəzərdə tutulmuşdursa, bu kateqoriyanın aktivləri qısamüddətli aktivlər kimi təsnifləşdirilirlər.

*(b) Borc vəsaitləri və debitor borcları*

Borc vəsaitləri və debitor borcları təsbit edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və aktiv bazarda qiyməti təyin edilməyən (kotirovka olunmayan) qeyri-törəmə maliyyə aktivləridir. Onlar o vaxt yaranırlar ki, Cəmiyyət debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidmətləri birbaşa debitora təqdim edir. Belə borc vəsaitləri və debitor borcları dövriyyə aktivləri kimi təsnifləşdirilirlər və qısamüddətli aktivlərə aid edilirlər (əgər ödəmə müdəti mühasibat balansının tərtib edilmə tarixindən bir ilədək müddətdən artıq deyildirsə). Borc vəsaitləri və debitor borcları mühasibat balansında "Debitor borcları" maddəsinin tərkibində əks etdirilmişlər.

(c) *Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar*

Ödəmə müdətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar təsbit edilmiş ödəmə müddəti olan elə qeyri-törəmə maliyyə aktivləridir ki, onlarla münasibətdə ödəniş müddətinin çatmasına qədər Cəmiyyətin onları saxlamağa qəti niyyəti və imkanı vardır. Hesabat dövründə Cəmiyyətin bu kateqoriya üzrə heç bir investisiyası olmamışdır.

(d) *Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri*

Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri bu kateqoriyada nəzərdə tutulmamış və ya digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-törəmə maliyyə alətləridir. Əgər rəhbərliyin bu aktivləri

mühasibat balansının tətib edilmə tarixindən bir ilədək müddətə satmaq niyyəti yoxdursa, onlar qeyri-dövriyyə aktivlərinə aid edilirlər və uzunmüddətli aktivlərin tərkibində əks etdirilirlər.

**3.8.Ehtiyatlar**

Ehtiyatlar iki göstəricidən ən aşağı dəyərə malik olan qiymət üzrə əks etdirilirlər:

(a) Maya dəyəri

(b) Xalis satış dəyəri

Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə hesablanır. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir.

**3.9. Debitor borcları**

Debitor borclar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarının (rezervlərinin) yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır. Debitor borcları üzrə qiymətdən düşmə ehtiyatları (rezervi) o halda yaradılır ki, elə obyektiv sübutlar mövcuddur ki, Cəmiyyət tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış bütün debitor borclarının yığılması mümkün deyildir və ya bütün debitor borclarının ödənilməsi mümkünsüzdür. Ehtiyatların (rezervin) məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsi nəzərə alınan fərz edilən diskontlaşdırılmış dəyəri arasındakı fərqdir. Ehtiyatların (rezervlərin) yaradılması və ya dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**3.10. Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

**3.11. Səhmdar kapital**

Adi səhmlər kapital kimi təsnifləşdirilir.

Yeni səhmlərin buraxılması ilə əlaqədar olan xərclər kapitalın tərkibində əks etdirilir.

**3.12. Kreditlər və borclar**

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır. Sonrakı dövrlərdə kreditlər və borclar amortizasiya olunan dəyər ilə əks etdirilir: istənilən alınmış vəsaitlər və ödənilmiş məbləğlər arasındakı fərq kredit və borcların verilmə müddəti ərzində mənfəət və zərərlər haqında hesabtda əks etdirilir (effektiv faiz dərəcəsi metodu istifadə edilməklə).

Konvertasiya olunan istiqrazların öhdəliklərə aid olan hissəsinin ədalətli dəyəri konvertasiya olunmayan istiqazlara ekvivalent bazar faiz dərəcəsi tətbiq edilməklə müəyyən olunur. Bu məbləğ konvertasiyada ləğv olunma müddətinə və istiqrazların ödənmə müddətinin çatması müddətinə qədər amortizasiya olunan öhdəliyin dəyəri kimi əks etdirilir. Alınmış qalan vəsaitlər konvertasiyaya opsion kimi mənfəət vergisi effekti çıxılmaqla kapitala əlavə edilir.

Kreditlər və borclar, Cəmiyyət tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətinədən ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olaması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

### 3.13. Sığorta ehtiyatları

Sığorta ehtiyatları, o cümlədən sığorta ehtiyatlarında təkrarsığortaşıların payı Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş qaydalar əsasında hesablanır. Hazırkı maliyyə hesabatlarında sığorta ehtiyatları və sığorta ehtiyatlarında təkrarsığortaçıların payı həmin qaydalar əsasında hesablanmışdır. 14 saylı Qeyddə sığorta ehtiyatlarının tərkibi açıqlanmışdır.

### 3.14. Mənfəət vergisi

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifdə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə). Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respunlikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanmışdır.

Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb ediləsi mənfəət əldə edilməsi ehtimalı vardır.

### 3.15. Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatlar (rezervlər)

Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatlar (rezervlər) o zaman yaradılır ki:

- Cəmiyyət keşmiş dövrlərdə baş vermiş hadisələr nəticəsində hər hansı hüquqi öhdəliklər daşıyır və ya könüllü surətdə öz üzərinə ənənəvi öhdəliklər qəbul etmişdir;

- Ehtimallar vardır ki, bu öhdəliklərin səhmana salınması üçün pul vəsaitlərinin axını labüddür;
- Bu öhdəliklərin məbləği etibarlı surətdə hesablana bilir.

Gələcək dövrlərin əməliyyat zərərləri üzrə ehtiyatlar yaradılmır.

### 3.16. Gəlirin tanınması

Gəlirlər aşağıdakı qaydada tanınır:

*(a) Birbaşa sığorta üzrə gəlir*

Birbaşa sığorta üzrə gəlir o vaxt tanınır ki, Cəmiyyətlə sığortalı arasında müqavilə imzalanmış, sığorta polisi sığortalı tərəfindən qəbul edilmişdir və müvafiq olan debitor borcunun alınması üçün kifayət dərəcədə ehtimal vardır.

*(b) Təkrarsığorta üzrə gəlir*

Təkrarsığorta üzrə gəlir o vaxt tanınır ki, Cəmiyyətlə təkrarsığortalı arasında risklərin təkrarsığortaya qəbul edilməsinə dair müqavilə imzalanmışdır və müvafiq olan debitor borcunun alınması üçün kifayət dərəcədə ehtimal vardır.

*(c) Sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə gəlirlər*

Sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə gəlirlər o zaman tanınır ki, təkrarsığortaya verilmiş müqavilələr üzrə baş vermiş sığorta hadisəsinə görə zərərin müvafiq hissəsinin təkrarsığortaçı tərəfindən ödəniləcəyi razılaşdırılmışdır və həmin hissənin ödənilməsi üçün kifayət dərəcədə ehtimal vardır.

*(d) Təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə gəlirlər*

Təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə gəlirlər o zaman tanınır ki, risklərin təkrarsığortaya verilməsinə dair təkrarsığortaçı ilə müqavilə bağlanmışdır və həmin müqavilə üzrə komissyon muzdun alınması üçün kifayət dərəcədə ehtimal vardır.

*(e) Xidmətlərin göstərilməsindən gəlirlər*

Xidmətlərin göstərilməsindən gəlirlər o hesabat dövrünə aid edilir ki, bu xidmətlər göstərilmişdir və xidmət göstərilməsi üzrə konkret sövdələşmənin tələbləri başa çatdırılmışdır. Konkret sövdələşmənin tələblərinin başa çatdırılması dərəcəsi faktiki göstərilmiş xidmətlərin həcminin sövdələşmə üzrə göstəriləcək xidmətlərin ümumi həcmindəki payı kimi qiymətləndirilir.

*(f) Faiz gəlirləri*

Faiz gəlirləri effektiv faiz dərəcəsi metodu istifadə edilməklə zaman tənasüblüyü əsasında tanınır. Debitor borcunun dəyərinin aşağı düşməsi hallarında Cəmiyyət balans dəyərini əvəzi ödənilə bilən dəyərə qədər aşağı salır. Dəyərin bu qaydada aşağı salınması, maliyyə alətlərinin effektiv faiz dərəcəsindən istifadə edilməklə, ilkin tanınma tarixinə pul vəsaitləri axınının gələcək diskontlaşdırılmış hesablamaları yolu ilə müəyyən edilir. Dəyəri aşağı salınmış faiz gəlirləri konkret şəraitdən asılı olaraq, pul vəsaitlərinin daxil olması və ya xərclərin əvəzinin ödənilməsi qaydasında tanınır.

*(g) Dividend gəlirləri*

Dividend gəlirləri o zaman tanınır ki, səhmdarların mənfəət əldə etmək hüququ müəyyən olunmuşdur.

### 3.17. İcarə

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

### 3.18. Dividendlərin verilməsi

Cəmiyyətin səhmdarlarına dividendlər maliyyə hesabatlarında öhdəlik kimi o dövrdə tanınır ki, həmin dövrdə Cəmiyyətnun səhmdarları tərəfindən təsdiq edilmişdir (qərar qəbul edilmişdir).

### 4. Maliyyə risklərinin idarə edilməsi

### 4.1.Maliyyə riskərinin faktorları

Cəmiyyətin fəaliyyəti bir sıra maliyyə risklərinə meyillidir: bazar riski (valyuta riskləri, faiz dərəcələrinin dəyişməsinin ədalətli dəyərə təsir riski və qiymət riski daxil olmaqla); kredit riski; likvidlik riski və faiz dərəcələrinin dəyişməsinin pul vəsaitləri axınına təsiri riski. Cəmiyyətin risklərin idarə olunması üzrə proqramı, maliyyə risklərinin qabaqcadan müəyyən edilə bilinməməsi amilinə cəmləşdirilmişdir (fokusuna yığılmışdır) və Cəmiyyətin fəaliyyətinin maliyyə nəticələrinə potensial əlverişsiz təsirinin minimallaşdırılmasına yönəldilmişdir. Cəmiyyət müəyyən risklərin hedcinqləşdirilməsi üçün törəmə maliyyə alətlərindən istifadə edir.

*(a) Bazar riski*

(i) Valyuta riski

Cəmiyyət beynəlxalq iqtisadi əlaqələrə malikdir və ona görə də, xarici valyuta kurslarının (əsasən, ABŞ dolları, evro, Rus rublu və s.) dəyişməsindən valyuta risklərinə meyillidir. Gələcək kommersiya sövdələşmələri, tanınmış aktivlər və öhdəliklər, həmçinin xarici şirkətlərə netto-investisiyalara münasibətdə mübabilə kurslarının dəyişməsi riski mövcuddur.

(ii) Qiymət riski

Cəmiyyət tərəfindən sığorta tarifləri könüllü sığortanın hər bir növü üzrə Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə razılaşdırılmış Qaydalara uyğun olaraq müəyyən edilir. Rəqabət mühitində könüllü sığorta növləri üzrə qiymət riski mövcuddur. İcbari sığorta növləri üzrə qiymətlər dövlət tərəfindən müəyyən olunduğundan bu növ sığorta müqavilələri üzrə qiymət riski mövcud deyildir.

*(b) Kredit riski*

Cəmiyyət əhəmiyyətli kredit risklərinə mübtəla deyildir. Cəmiyyətdə etibarlı kredit tarixinə məxsus olan alıcıların ödəmə qabiliyyətli olmasına inamı təmin edən prosedurlar işlənmişdir. Törəmə alətlərlə sövdələşmələr və pul əməliyyatları yalnız yüksək ödəmə qabiliyyəti olan maliyyə institutları ilə aparılır. Cəmiyyət tərəfindən heç bir istisnaya yol vermədən bütün maliyyə institutları üçün kredit riskini məhdudlaşdıran prosedurlar işlənmişdir.

*(c) Likvidlik riski*

Likvidlik riskinin ehtiyatlılıqla idarə edilməsi pul vəsaitləri və dövriyyədə olan qiymətli kağızların kifayət həcminin saxlanmasını, açılmış kredit xəttləri vasitəsilə adekvat maliyyələşmə imkanlarını və ortaya çıxa biləcək disbalans hallarında operativ idarərtmə imkanlarını nəzərdə tutur.

*(d) Faiz dərəcəsinin dəyişməsinin pul vəsaitləri axınına və ədalətli dəyərə təsiri riski*

Cəmiyyət faiz gəliri gətirən əhəmiyyətli məbləğdə aktivlərə malikdir. Bu səbəbdən də faiz gəlirləri

üzrə mənfəət və pul vəsaitlərinin əməliyyat axınları, əsasən bazar faiz dərəcələrinin dəyişməsindən asılıdır.

**4.2.Törəmə maliyyə alətləri və hedcinq əməliyyatlrı**

Törəmə maliyyə alətləri müvafiq sövdələşmələrin (kontraktların) bağlanma tarixinə ilkin balans dəyəri ilə uçota alınır: sonradan ədalətli dəyərə yenidən qiymətləndirmə tələb edilir. Bu qaydada müəyyən edilmiş gəlirlər və zərərlər maliyyə alələrinin hedcinq aləti kimi təsnifləşdirilməsindən asılıdır.

*(a) Ədalətli dəyərin hedcinqləşdirilməsi*

Cəmiyyət tərəfindən pul vəsaitləri axınının hedcinqləşdirilməsi aləti kimi təsnifləşdirilən törəmə alətlərin ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda hedcinqləşmə riskinə aid olan hedcinqləşdirilən maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərinin dəyişməsi ilə birliklə əks etdirilir.

*(b) Pul vəsaitləri axınının hedcinqləşdirilməsi*

Cəmiyyət tərəfindən pul vəsaitləri axınının hedcinqləşdirilməsi aləti kimi təsnifləşdirilən törəmə alətlərin ədalətli dəyərinin dəyişməsinin effektiv hissəsi kapitalın tərkibində tanınır (bu dəyişmənin effektiv olmayan hissəsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir).

*(c) Xüsusi hedcinqləşdirmə əməliyyatı uçotu tətbiq edilməyən törəmə alətlər*

Bir sıra maliyyə alətləri xüsusi hedcinqləşdirmə əməliyyatı uçotu qaydalarına aid edilmir. Hedcinqləşdirmə əməliyyataları tətbiq edilməyən maliyyə alətlərinin ədalətli dəyərinin dəyişməsi birbaşa mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**4.3.Ədalətli dəyərin qiymətləndirilməsi**

Aktiv bazarda dövriyyədə olmayan maliyyə alətlərinin (birjadan kənar maliyyə alətləri) ədalətli dəyəri müxtəlif qiymətləndirmə metodları vasitəsilə müəyyən edilir. Cəmiyyət hesabat tarixinə bazar şəraitindən asılı olaraq mövcud olan bir neçə qiymətləndirmə metodundan istifadə edir. Uzunmüddətli borcların ədalətli dəyərinin müəyyən edilməsi üçün analoji alətlər üçün birja qiymətləri və ya dilerlərin kotirovkaları tətbiq edilir. Qalan maliyyə alətlərinin ədalətli dəyərinin müəyyən edilməsi üçün hesablama pul vəsaitləri axınının diskontlaşdırılması metodu istifadə edilir. Faiz svoplarının ədalətli dəyəri pul vəsaitlərinin gələcək axınının törəmə dəyəri kimi hesablanır. Forvard valyuta sövdələşmələrinin (kontraktlarının) ədalətli dəyəri bazarda təkmül tapmış forvard valyuta kurslarından istifadə edilməklə hesablanır.

**5. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri**

Cəmiyət növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edir.Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və fərziyyələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

**5.1.Müştəri debitor borclarının dəyərsizləşməsi üzrə zərərlər**

Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

**5.2.Vergilər, əmək münasibətləri və sosial sığorta**

Vergilərin hesablanması və ödənilməsi, əmək münasibətləri üzrə işçilərlə hesablaşmalar, sosial sığorta üzrə əməliyyatlar Azərbaycan Respublikasının vergi, əmək və sosial sığorta üzrə qanunvericiliyinə uyğun olaraq aparılır.

**5.3.Sığorta qanunvericiliyi ilə nəzərdə tutulmuş normalar.**

Cəmiyyət sığorta üzrə fəaliyyəti zamanı "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu ilə nəzərdə tutulmuş və Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş sığortaçıların investisiya əməliyyatları ilə bağlı qaydaları, sığortaçının tələb olunan kapitalının müəyyənləşdirilməsi qaydaları, sığortaçıların zərərlilik dərəcəsinin müəyyən edilməsi qaydaları , sığorta və ya təkrarsığorta müqavilələri üzrə sığortaçının şəxsi tutumunun yuxarı həddinə dair tələbləri və digər normativ sənədlərin tələblərini rəhbər tutur.

## 6. Əsas vəsaitlər

| | Binalar | Maşın və avadanlıq, hes.texnika | Nəqliyyat vasitələri | Mebel və təs. inv. | TTA üzrə məsrəflərin kapital-ı | Cəmi |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il tarixinə balans dəyəri** | **6 933 403** | **389 734** | **627 132** | **6 735** | **40 918** | **7 997 922** |
| Daxilolmalar | 894 223 | 62 450 | - | 1 561 | 2 714 | 960 948 |
| Xaricolmalar | - | (42 339) | - | (384) | - | (42 723) |
| Amortizasiya ayırmaları | (70 148) | (50 577) | (78 392) | (791) | - | (199 908) |
| **31 dekabr 2021-ci il tarixinə balans dəyəri** | **7 757 478** | **359 268** | **548 740** | **7 121** | **43 632** | **8 716 239** |
| Daxilolmalar | 5 906 | 104 881 | 84 600 | 31 240 | 1 579 738 | 1 806 365 |
| Xaricolmalar | - | (20 118) | - | (4 317) | - | (24 435) |
| Amortizasiya ayırmaları | (77 634) | (55 504) | (79 167) | (3 405) | - | (215 710) |
| **31 dekabr 2022-ci il tarixinə balans dəyəri** | **7 685 750** | **388 527** | **554 173** | **30 639** | **1 623 370** | **10 282 459** |

## 7. Qeyri-maddi aktivlər

| | Proqram məhsulları | Lisenziya | İcbari Sığorta Bürosu (haqq) | Cəmi |
|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il tarixinə balans dəyəri** | **500 307** | **6 807** | **14 368** | **521 482** |
| Daxilolmalar | 570 955 | - | - | 570 955 |
| Xaricolmalar | - | - | - | - |
| Amortizasiya ayırmaları | (156 417) | (4 701) | (14 368) | (175 486) |
| **31 dekabr 2021-ci il tarixinə balans dəyəri** | **914 845** | **2 106** | **-** | **916 951** |
| Daxilolmalar | 56 218 | - | - | 56 218 |
| Xaricolmalar | - | - | - | - |
| Amortizasiya ayırmaları | (205 653) | (2 106) | - | (207 759) |
| **31 dekabr 2022-ci il tarixinə balans dəyəri** | **765 410** | **-** | **-** | **765 410** |

## 8. Uzunmüddətli maliyyə aktivləri

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| İcbari Sığorta Bürosunda iştirak üçün depozit | 300 000 | 300 000 |
| AR Maliyyə Nazirliyinin istiqrazları (AZN; 3 il; illik 7,80 %) | 2 082 561 | 4 999 947 |
| SOCAR istiqrazları (USD; 5 il; illik 4,5 %) | 15 358 487 | 12 639 500 |
| | **17 741 048** | **17 939 447** |

## 9. İştirak payı metodu ilə investisiyalar

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| "Xalq Həyat" ASC-də 100% -lik iştirak payı | 15 000 000 | 15 000 000 |
| "Aqrar Sığorta Müştərək Sığorta Şirkəti" ASC-də 14,29%-lik iştirak payı | 312 500 | 312 500 |
| | **15 312 500** | **15 312 500** |

## 10. Sair qısamüddətli debitor borcları

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| İşçi heyəti üzrə debitor borcları | 43 580 | 42 360 |
| Təkrarsığorta əməliyyatları üzrə debitor borclar | 32 682 | 46 799 |
| Yeni inzibati binanın təmiri və təchizatı üzrə debitor borclar (avanslar) | 2 470 939 | - |
| Depozit və istiqrazlardan hesablanmış faizlər üzrə debitor borclar | 337 289 | - |
| Digər qısamüddətli debitor borclar | 430 692 | 291 734 |
| | **3 315 182** | **380 893** |

## 11. Sair qısamüddətli aktivlər

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| Gələcək hesabat dövrünün xərcləri | 37 899 | 43 061 |
| | **37 899** | **43 061** |

## 12. Pul vəsaitləri və onların ekvivalentləri

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| Kassada olan nəğd pul vəsaitləri | 1 101 | 3 961 |
| Bank hesablarında pul vəsaitləri | 8 473 792 | 813 316 |
| Bank depozit hesablarındakı pul vəsaitləri | 21 900 000 | 25 980 000 |
| | **30 374 893** | **26 797 277** |
| Bank hesablarında pul vəsaitlərindən: | | |
| • Milli valyutada bank hesabları | 8 061 574 | 780 269 |
| • Xarici valyutalarda bank hesabları | 412 218 | 33 047 |
| | **8 473 792** | **813 316** |
| Bank depozit hesablarındakı pul vəsaitlərindən: | | |
| • ASC "Xalq" Bankında yerləşdirilmiş depozitlər (AZN) | 10 500 000 | 10 500 000 |
| • "Ziraat Bank" ASC-də yerləşdirilmiş depozitlər (AZN) | 8 000 000 | 8 000 000 |
| • ASC "Xalq" Bankında xarici valyutada depozitlər (USD) | 3 400 000 | 7 480 000 |
| | **21 900 000** | **25 980 000** |

## 13. Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| Təkrarsığortaçı üzrə öhdəliklər | 703 373 | 553 332 |
| Təkrarsığortalı üzrə öhdəliklər | - | - |
| | **703 373** | **553 332** |

## 14. Sığorta ehtiyatları

| | Qazanılmamış sığorta haqları ehtiyatı | Baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatı | Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatı | Digər ehtiyatlar | Cəmi ehtiyatlar |
|---|---|---|---|---|---|
| 31 dekabr 2021-ci il tarixə | | | | | |
| Ümumi ehtiyatların məbləği | (18 546 967) | (3 103 352) | (862 381) | (2 049 719) | (24 562 419) |
| Təkrarsığortaçıların payı | 836 755 | 168 568 | - | - | 1 005 323 |
| Xalis sığorta ehtiyatları | (17 710 212) | (2 934 784) | (862 381) | (2 049 719) | (23 557 096) |
| **31 dekabr 2021-ci il tarixə xalis sığorta ehtiyatları** | **(17 710 212)** | **(2 934 784)** | **(862 381)** | **(2 049 719)** | **(23 557 096)** |
| 31 dekabr 2022-ci il tarixə | | | | | |
| Ümumi ehtiyatların məbləği | (25 324 600) | (3 298 362) | (2 732 348) | (6 512 145) | (37 867 455) |
| Təkrarsığortaçıların payı | 958 507 | 132 312 | - | - | 1 090 819 |
| Xalis sığorta ehtiyatları | (24 366 093) | (3 166 050) | (2 732 348) | (6 512 145) | (36 776 636) |
| **31 dekabr 2022-ci il tarixə xalis sığorta ehtiyatları** | **(24 366 093)** | **(3 166 050)** | **(2 732 348)** | **(6 512 145)** | **(36 776 636)** |

**Xalis sığorta ehtiyatlarının dəyişməsi**

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| Xalis sığorta ehtiyatlarının dəyişməsi | (13 219 540) | (940 120) |
| | **(13 219 540)** | **(940 120)** |

## 15. Qarşısıalınma tədbirləri fondu

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| Qarşısıalınma tədbirləri fondu | 842 330 | 647 113 |
| | **842 330** | **647 113** |

## 16. Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər və avanslar

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| Sosial sığorta öhdəlikləri | 77 922 | 64 392 |
| Vergilər üzrə ödənilmiş avanslar | 379 475 | 555 378 |
| Sosial sığorta üzrə ödənilmiş avanslar | - | - |
| **Ödənilmiş avanslar** | **379 475** | **555 378** |
| **Öhdəliklər** | **77 922** | **64 392** |

## 17. Qısamüddətli kreditor borcları

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| Əmək haqqı üzrə qısamüddətli kreditor borclar | - | - |
| Təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə | - | - |
| Digər xidmətlər üzrə qısamüddətli kreditor borcları | 138 011 | 92 066 |
| | **138 011** | **92 066** |

## 18. Sair qısamüddətli öhdəliklər

| | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| Gələcək hesabat dövrünün gəlirləri | 38 966 | 38 966 |
| Alınmış avanslar | - | - |
| | **38 966** | **38 966** |

## 19. Səhmdar kapital

| | Səhmlərin sayı (ədəd) | Səhmin nominal dəyəri (manat) | Adi səhmlər (manat) | İmtiyazlı səhmlər (manat) | Cəmi səhmdar kapitalı (manat) |
|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il tarixinə** | **7 390 000** | 7.95 | **58 750 500** | - | **58 750 500** |
| NK xalis mənfəət hesabına artırılması | | | - | - | - |
| Səhmdarların kapital qoyuluşu | | | - | - | - |
| **31 dekabr 2021-ci il tarixinə** | **7 390 000** | 7.95 | **58 750 500** | - | **58 750 500** |
| NK xalis mənfəət hesabına artırılması | | | - | - | - |
| Səhmdarların kapital qoyuluşu | | | - | - | - |
| **31 dekabr 2022-ci il tarixinə** | **7 390 000** | 7.95 | **58 750 500** | - | **58 750 500** |

## 20. İnvestisiya gəlirləri

| | 2022 | 2021 |
|---|---|---|
| ASC "Xalq" Bankındakı depozitlərdən faiz gəlirləri | 648 421 | 708 687 |
| "Ziraat Bank" ASC-dəki depozitlərdən faiz gəlirləri | 499 276 | 604 124 |
| "SOCAR" istiqrazları üzrə faiz gəlirləri | 665 216 | 531 755 |
| AR Maliyyə Nazirliyinin istiqrazları üzrə faiz gəlirləri | 132 218 | 435 261 |
| "Aqrar Sığorta Müştərək Sığorta Şirkəti" ASC üzrə dividendlər | 37 800 | - |
| | **1 982 931** | **2 279 827** |

## 21. Fövqəladə gəlirlər

| | 2022 | 2021 |
|---|---|---|
| Təkrarsığortaya verilmiş risklər üzrə xitamdan daxilolmalar | 555 | - |
| İSB Yaşıl kart (təkrarsığorta daxılı) üzrə retrosessiya gəlirləri | 5 072 | 70 208 |
| Azadolma üzrə gəlirlər | - | 269 316 |
| Aqrar sığorta vasitəçiliyi üzrə gəlirlər | 111 590 | 54 686 |
| Məzənnə fərqlərindən gəlirlər | - | - |
| Kreditor borcların silinməsindən gəlirlər | 4 193 | 9 777 |
| Cərimələr və düzəlişlər üzrə gəlirlər | 73 982 | 177 690 |
| Digər gəlirlər | 30 358 | 10 625 |
| | **225 750** | **592 302** |

## 22. Sair əməliyyat xərcləri

| | 2022 | 2021 |
|---|---|---|
| Qarşısıalınma tədbirləri fonduna ayırmalar | (327 950) | (206 341) |
| İcbari sığorta növlərinə görə İSB-na ayırmalar | - | (1 031 705) |
| | **(327 950)** | **(1 238 046)** |

## 23. İşlərin aparılması xərcləri

| | 2022 | 2021 |
|---|---|---|
| Əmək haqqı xərcləri | (3 408 805) | (3 399 457) |
| Sosial sığorta ayırmaları | (627 218) | (596 270) |
| Sığorta vasitəçilərinə komisyon muzdlar | (1 524 386) | (1 202 096) |
| Amortizasiya ayırmaları - əsas vəsaitlər | (215 710) | (199 908) |
| Amortizasiya ayırmaları – qeyri-maddi aktivlər | (207 759) | (175 487) |
| İcbari sığorta növlərinə görə İSB-na ayırmalar | (1 639 764) | - |
| Bank xidməti | (245 360) | (173 887) |
| Reklam | (142 036) | (65 729) |
| Ezamiyyət | (24 787) | (8 074) |
| Dəftərxana ləvazimatları, ofis və təsərrüfat xərcləri | (116 896) | (88 069) |
| Rabitə xərcləri | (132 598) | (97 348) |
| İcarə | (364 497) | (387 344) |
| İşçilərin ixtisasartırmasına xərclər | (42 528) | (10 913) |
| İnvestisiya fəaliyyəti üzrə xərclər | (22 329) | (59 332) |
| Proqram dəstək xidməti | (94 964) | (72 195) |
| Nəqliyyatın saxlanması və yanacaq | (195 177) | (268 538) |
| Məsləhət, ekspert, hüquq və digər peşəkar xidmətlər | (832 844) | (606 169) |
| Əsas vəsaitlərin təmiri xərcləri | (130 819) | - |
| Digər xərclər | (248 146) | (275 705) |
| | **(10 216 623)** | **(7 686 521)** |

**24. Fövqəladə xərclər**

| | 2022 | 2021 |
|---|---|---|
| Məzənnə fərqindən zərər | (10 868) | (9 491) |
| Hədiyyələr üzrə xərclər | (9 558) | - |
| Maddi yardım | (6 000) | - |
| Cərimə və sanksiyalar | (196) | - |
| Digər fövqəladə xərclər | (14 079) | (13 654) |
| | **(40 701)** | **(23 145)** |

**25. Mənfəət vergisi**

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

| | 2022 | 2021 |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | - | - |
| Təxirə salınmış vergi xərci | - | - |
| **İl üzrə mənfəət vergisi xərci** | **-** | **-** |

MHBS və Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti zaman fərqləri əmələ gəlir. Bu müvəqqəti zaman fərqləri üzrə dövriyyələrin vergi təsiri göstərilir və 20% (2021-ci il- 20%) dərəcəsində qeydə alınır. Hazırkı maliyyə hesabatlarına qeyd olunan fərqlərin təsiri olmadığından təxirə salınmış vergi aktivləri və ya öhdəlikləri hesablanmamış və nəzərə alınmamışdır. Vergi Məcəlləsinə əsasən müəssisənin vergi məqsədləri üçün zərərləri 5 il ərzində mənfəət hesabına silinərsə mənfəətin zərərlərin silinməsinə yönəldilən hissəsi mənfəət vergisindən azaddır. Bu səbəbdən cəmiyyətin 2021 və 2020-ci il üzrə mənfəəti 2019-cu ilin zərərlərinin bir hissəsinin silinməsinə yönəldildiyinə görə 2021 və 2020-ci illər üzrə mənfəət vergisi hesablanmamışdır.

**26. Səhm üzrə mənfəət**

Cəmiyyətin səhm üzrə mənfəəti potensial olaraq azaldılmış adi səhmlərə malik deyildir. Buna görə, səhm üzrə azaldılmış mənfəət səhm üzrə əsas mənfəətə bərabərdir.

| | 2022 | 2021 |
|---|---|---|
| **İl üzrə xalis mənfəət** | **-** | **5 029 191** |
| **Dövriyyədə olan adi səhmlərin orta çəkili sayı (ədəd)** | **7 390 000** | **7 390 000** |
| **Adi səhm üzrə mənfəət (səhm üzrə manatla)** | **-** | **0.68** |

**27. Əlaqəli tərəflərlə əməliyyatlar**

Hazırkı maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəfərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

Cəmiyyət özünün maliyyə vəsaitlərinin əhəmiyyətli hissəsini əlaqəli tərəf olan "Xalq Bank" ASC-də yerləşdirmişdir. Həmin bankdakı depozit hesablar üzrə cəmiyyətin 2022-ci ildə 648421 manat, 2021-ci ildə isə 708687 manat faiz gəlirləri olmuşdur.

**28. Risklərin idarə edilməsi**

Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Kredit riski***
Cəmiyyətin kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir. Cəmiyyətin pul depozitləri mötəbər maliyyə idarələrində yerləşdirilmişdir.

***Bazar riski***
Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

***Faiz dərəcəsi riski***
Cəmiyyətin bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

**29. Hesabat tarixindən sonra baş vermiş hadisələr**

Hesabat tarixindən sonrakı dövrdə maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərən hadisələr baş verməmişdir.